# Gənclər gələcəyimiz və qürur mənbəyimizdir

(Əvvəli 3-cü səhifədə).

Bu fikir ölkə gəncləri qarşısında geniş imkanlar açdı və onlar mühüm dövlət və hakimiyyət orqanlarında məsul vəzifələrə irəli çəkildilər.

Forumdan sonra 1999-cu ildə «Dövlət gənclər siyasəti haqqında» fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi ulu öndərin gənc nəslə yüksək diqqətinin konkret nümunələri qismində çıxış edirdi.

Gənclərlə bağlı daha bir mühüm sənəd isə 2002-ci ildə qəbul olunan «Gənclər siyasəti haqqında» qanun oldu. Gənclərin öz bilik və bacarıqlarının, onların cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması istiqamətində adıçəkilən qanun mühüm əhəmiyyət kəsb edir. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatında iştiraklarında, gənclərin məşğulluğunun təmin olunmasında bu qanunun böyük rolu var.

O da birmənalı həqiqətdir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün ölkəmizdə həyata keçirilən gənclər siyasəti keyfiyyət etibarı ilə yeni bir mərhələyə yüksəlməklə yanaşı, həm də zamanın çağırışlarına adekvat cavab verir. Prezident gəncləri cəmiyyətin avanqard qüvvəsinə çevirmək məqsədilə 2005-ci ildə «Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005—2009-cu illər) təsdiq edilməsi haqqında sərəncam imzaladı. Bu proqrama əsasən gənclər bu gün dövlət orqanlarında, Milli Məclisdə, bələdiyyələrdə, biznez strukturlarında və s. sahələrdə layiqincə təmsil olunur və cəmiyyətin inkişafında öz töhvələrini verirlər.

Gələcək nəslə çox böyük diqqət və qayğı göstərən Prezident İlham Əliyevin sərəncamı ilə 2007-ci ilin «Gənclər ili» elan edilməsi, 2011-ci il 6 aprel tarixli «Azərbaycan Gəncliyi 2011—2015-ci illərdə Dövlət Proqramı haqqında sərəncamı, Gənclər Fondunun yaradılması gənclərə olan qayğının bir hissəsidir.

Prezident İlham Əliyevin ölkədə aparılan kadr islahatları zamanı gənclərə göstərdiyi etimad diqqəti cəlb edir. Dövlət başçısı bununla bağlı demişdir: «Bu günkü» gənclər bir neçə ildən sonra Azərbaycanın bütün idarəetmə sistemində əsas rol oynayacaqlar. Ona görə gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək lazımdır ki, onlar işləsinlər, gözəl təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyəti üçün hazır olsunlar. Bu gün yüksək intellekti və bacarığı ilə seçilən gənclərin dövlət idarəetmə işlərinə cəlb olunması deyilənləri bir daha təsdiqləyir.

Bu gün Qəbələ rayonu əhalisinin təqribən 30 faizini gənclər təşkil edir. Gənclərin rayonun ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətləri üzrə böyük işlər görülmüşdür. Gənc istedadlara göstərilən qayğının səviyyəsi yüksəlmiş, elm, təhsil, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsinə daim diqqət yetirilmişdir.

**Aslan CƏLİLOV.**

*Kitabxana xalqın mənəvi xəzinəsidir*

# Fəaliyyət uğurludur

Qəbələ rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi yarandığı (1930) gündən bu günə qədər əhaliyə yüksək xidməti ilə seçilir. Kitabxanamızın kollektivi yaş kateqoriyasından aslı olmayaraq hər bir oxucuya yüksək xidmət göstərir, oxucuların arzu və istəklərinin həyata keçirilməsində əlindən gələni əsirgəmir. Kitabxanamızda keçirilən tədbirlərdə, yubiley sərgilərində oxucuların yaxından iştirak etməsi buna sübutdur. Bütün bunları nəzərə alaraq 2015-ci il müxtəlif tədbirlər, yubiley sərgiləri ilə zəngin bir il olduğunu deyə bilərik. Ötən il kitbxanamız bir çox uğurlara imza atdı, bunlardan ən başlıcası kitabxanamızın tanıtım bukleti və saytı (gabala.cls.az) yeni formatda hazırlandı və oxuculara təqdim olundu.

2015-ci il tədbirləri ilə də yadda qaldı. «20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir», «26 fevral 1992-ci il erməni faşizminin törətdiyi qanlı soyqırım», 8 Mart Beynəlxalq Qadınlar Günü, 31 Mart Azərbaycanlıların Soyqırım Günü, 7 may kitab bayramı, 9 May 1941—1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyi, 1 İyun 2015-ci il tarixdə Qəbələ rayon Heydər Əliyev parkında Uşaqların Beynəlxalq Müdafiə Günü, 15 iyun—Qurtuluş Günü ilə əlaqədar «Qurtuluşumuzun qarantı», 1 avqust—Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə «Ana dilimizi qoruyaq», 15 sentyabr—Bilik Günü, 16 sentyabr rayonun bir qrup ziyalıları ilə birlikdə «Xocalını unutmarıq» mövzusunda, 12 dekabr—ulu öndərin anım günü ilə əlaqədar «Heydər Əliyev vətənin keşiyində» adlı tədbirlərimiz olmuşdur.

2015-ci ildə kitabxanamızda şair və yazıçılarımızın, görkəmli şəxslərin yubiley sərgiləri açıldı. Bu da kitabxanaya gələn oxucuların böyük rəğbətini qazandı, həmçinin oxucuların həmin insanların həyat və yaradıcılığı ilə daha yaxından tanış olmalarına şərait yaratdı. Bu sərgilər sırasına «Rəsul Rza—105», «Maqsud İbrahimbəyov—80», «Cəmşid Naxçıvanski—120», «Oqtay Salamzadə—85», «Mahmud İsmayılov—95», «Fikrət Qoca—80», «Bəxtiyar Vahabzad—90», Üzeyir Hacıbəyli—130», «Müslüm Maqomayev—130», «Azərbaycan Respublikasının Milli Mətbuatı—140», «Kitabi Dədə Qorqudun alman dilində tərcüməsi və ilk nəşri—200», «Əliağa Şıxlinski—150», «Səmədbəy Mehmandarov—160» və s. başlığı altında açılmış sərgiləri sadalaya bilərik. Eləcə də 15 iyun-Qurtuluş Günü ilə əlaqədar «Qurtuluşumuzun qarantı», 2015-ci ilin Azərbaycan Respublikasında «Kənd təsərrüfatı ili» elan edilməsi ilə əlaqədar Mərkəzi kitabxanada «Kənd təssərrüfatının inkişafı ərzaq bolluğu deməkdir» adlı geniş kitab sərgisi, guşə və foto-stend təşkil olunmuşdur. Mütaliə həftəsi çərçivəsində "Gəlin mütaliə edək" adlı sərgi açılmışdır. Sərgi bir həftədən çox davam etmişdir. Həmçinin il ərzində kitabxanamız uşaq bağçalarında, məktəblərdə tədbir və sərgilər təşkil etmiş, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Qəbələ rayonunda yerləşən hərbi hissəsində səyyar kitabxana təşkil etmişdir.

**Ülkər Qədirova,**
**MKS-in operatoru.**

# Sığorta-pensiya sistemi təkmilləşir

Yola saldığımız 2015-ci il Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsinin kollektivi üçün də uğurlu olmuşdur. Şöbənin peşəkar kollektivi sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan prinsiplərə əməl edərək pensiya islahatlarının da icrası üçün mühüm təşkilati işlər görmüşdür.

Qəbələ rayon şöbəsi ötən il məcburi dövlət sosial-sığorta haqları üzrə proqnozun yerinə yetirilməsi üçün ilk növbədə kütlə arasında maarifləndirmə işinə geniş yer vermişdir. Nəticədə ötən ilin yekununa görə burada sosial-sığorta haqlarının toplanmasında müsbət göstəricilər əldə edilmişdir. Belə ki, burada il ərzində 7368,5 min manat məcburi dövlət sosial-sığorta haqları toplanmışdır. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 3976,6 min manat, qeyri-büdcə təşkilatları üzrə isə 3391,9 min manat olmuşdur. Beləliklə, 2014-cü illə müqayisədə 76,3 min manat çox məcburi dövlət sosial-sığorta haqları toplanmışdır. Şöbə tərəfindən vahid pəncərə sisteminin tətbiqi sayəsində sahibkarlıq fəvaliyyətində sosial-sığorta ayırmaları ödənilməsindən yayınmaq hallarının qarşısı əsaslı şəkildə alındığına görə il ərzində 1267 sığorta edən, o cümlədən 40 hüquqi şəxs, 1080 fiziki şəxs. 147 pay torpaq mülkiyyətçisi qeydiyyata alınmışdır.

2015-ci ildə də 2014-cü ildə olduğu kimi, sığorta haqları ödəyən sahibkarlar və fiziki şəxslərdən vəsaitlərin birbaşa qəbulu aradan qaldırılmış, sığorta haqlarının ödənilməsi işi poçt və bank filialları vasitəsilə aparılmışdır. Elektron hökumət proqramına uyğun olaraq, 2015-ci ilin əvvəlindən hesabatların elektron formada internet vasitəsilə qəbulu işi tamamlanmaq üzrədir. Cari ildə B-1 hesabat formaları hüquqi şəxslər və əmək müqaviləsi üzrə işçiləri olan iri sahibkarlardan, fiziki şəxslərin isə böyük qismindən elektron formada qəbul olunmuşdur.

Sığortaedənlərin məcburi dövlət sosial-sığortasına cəlb olunması və ödənişlərdən yayınma hallarının qarşısının alınması məqsədilə şöbədə inzibati tədbirlərlə yanaşı, təbliğat və izahat işlərinə də üstünlük verilir. Belə ki, hazırda ölkədə fəaliyyət göstərən sığorta-pensiya sisteminin üstünlükləri və ödənilən hər manatın gələcəkdə sığortaolunan şəxsin pensiya təminatında oynadığı rol vətəndaşlara izah olunur, nəticədə də əhali arasında sığorta haqlarının ödənilməsinə maraq gündən-günə artır.

2015-ci ildə məcburi dövlət sosial sığorta haqlarını ödəməyən 61 sığortaedən barədə Şəki İnzibati-İqtisadi Məhkəməsində borcun alınması tələbi ilə iddia qaldırılmış və iddia tələbləri təmin olunmuşdur.

Dövlət sığorta sistemində fərdi uçotun tətbiqi ilə əlaqədar olaraq, ötən il 1385 nəfərə yeni sığorta şəhadətnaməsi verilmiş, daha 11 nəfər şəxsə yeni sığorta şəhadətnaməsinin hazırlanması üçün fondun aidiyyatı şöbəsinə sifarişlər verilmişdir. Bununla da bu günədək sığorta şəhadətnaməsi alan şəxslərin sayı 25, 435 nəfərə çatmışdır.

1 yanvar 2016-cı il vəziyyətinə görə şöbə üzrə 11.527 pensiya işi üzrə 11.820 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur, onlardan 7.993 nəfəri yaşa görə, 2.850 nəfəri əlilliyə görə, 684 nəfəri ailə üzrə, 977 nəfəri isə ailə başçısını itirməsinə görə pensiyaçı olmuşdur. Pensiyaçılara təyin olunmuş 1 aylıq pensiyanın ümumi məbləği 1.769,4 min manat, bir pensiya işi üzrə orrta aylıq pensiya məbləği isə 153,50 manat təşkil etmişdir. Hesabat dövründə 44 nəfərə yaşa görə pensiya təyin olunmuşdur.

Ölkə başçısının 3 aprel 2015-ci il tarixli 1159 saylı Sərəncamı ilə şöbədə qeydiyyatda olan 14 nəfər Böyük Vətən müharibəsi iştirakçısı və əlilinin, 128 nəfər müharibə iştirakçısının dul qadını və müharibə illərində arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxsin hər birinə müvafiq olaraq 800 və 400 manat məbləğində birdəfəlik maddi yardım ödənilmişdir. Hazırda rayonumuzda bütün pensiyaçılar pensiyalarını plastik kartlarla alır və bu məqsədlə pensiyaçılara Beynəlxalq bankın 8 bankomatı xidmət göstərməkdədir.

Şöbə üzrə vətəndaşların ərizə və şikayətlərinə ən qısa müddətdə baxılması və ərizələrin diqqətlə araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilmiş, şifahi müraciət edən vətəndaşların qeydiyyatı aparılmış, şöbənin rəhbərliyi tərəfindən vətəndaşların məhdudiyyətsiz qəbulu və bütün şifahi müraciətlərin diqqətlə araşdırılması təmin olunmuşdur.

Vətəndaş müraciətlərinə baxılması işinin daha da yaxşılaşdırılması, qəbulların nizamlı təşkilini təmin etmək məqsədilə xüsusi qəbul qrafiki müəyyən edilmiş, bölmələr üzrə qəbul isə məhdudiyyətsiz aparılmaqdadır.

Şöbənin inzibati binasında məcburi dövlət sosial-sığorta haqlarının normativlərini, həmçinin, sosial sığorta və pensiya qanunvericiliyində baş vermiş son dəyişikliklər, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını əks etdirən lövhələr yerləşdirilmiş, maarifləndirmə işinin gücləndirilməsi məqsədilə «Pensiyaçı» qəzetinin yerləşdirildiyi ayrıca guşə yaradılmış, eyni zamanda, vətəndaşlarla birbaşa görüşlər zamanı maarifləndirmə və təşviqat işi aparılmışdır.

Şöbəmizin əsas məqsədi bundan sonra da pensiyaçılara yüksək səviyyədə xidmət göstərməkdən ibarətdir.

**Ariz MƏMMƏDOV,**
**DSMF Qəbələ Rayon Şöbəsinin müdiri.**